**Görülmüş işlərə dair məlumatlar**

- İki ölkə arasında qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində əməkdaşlıq əlaqələrinin davam etdirilir.
- Pakistan İslam Respublikasının müvafiq qurumları ilə qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində Kodeks Alimentarius Komissiyası, Bitki Mühafizəsi haqqında Beynəlxalq Konvensiya, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı və digər aidiyyəti beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq mütəmadi olaraq həyata keçirilir.
- Pakistan İslam Respublikası Baş Nazirinin Azərbaycana səfəri zamanı 24 fevral 2025-ci il tarixində Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında bitki mühafizəsi və karantin sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.
- AQTA və Pakistanın Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqat Nazirliyinin nümayəndə heyətləri arasında onlayn görüş keçirilib. Görüşdə Pakistanın Baş Heyvandarlıq Müfəttişi və Bitki karantini Departamentinin Direktoru ilə heyvan sağlamlığı və bitki sağlamlığı sahələrində əməkdaşlıq istiqamətləri müzakirə olunub. İki ölkə arasında Bitki sağlamlığı və karantini sahəsində imzalanmış Sazişin müddəalarının icrası məqsədilə Birgə İşçi Qrup yaradılıb.
- 01.09.2022 tarixində AQTA və Pakistan İslam Respublikası Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqat Nazirliyinin nümayəndə heyətləri arasında onlayn görüş keçirilib.
- 13.02.2021 tarixində AQTA ilə Pakistan Bitki Mühafizəsi İdarəsi nümayəndələri arasında görüş keçirilib.